

**Niginəbanu Həciqurbanavə**

## Anamın sirri

Anam piroq bişirir
Sanki çiçək şəklində.
Sanki könlün köçürür
Hər bir işin əslinə.
Xanım, mantı, çuçvərə,
Şirin barının dadı.
Masanın ətrafında
Artar aşpaz hörməti.
— Niyə belə şirindir,
bütün yeməkləriniz?
— Bir çimdik mehrimi de,
Katmıştım, ay, atası.
Bacarıqsız aşpazlar,
Anamdan örnək alin.
Yemek iyi olmursa
Birazca mehr salin.

## Mən həyatı sevirəm, çünki onda mən varım

Günəş saçar nurunu
dünyanı parlatmağa,
Çiçəklər açılacaq
kokusunu yaymağa,
Yaşayıram həyatta
arzulara çatmağa,
Ömrüm bağındakı gül,
tikandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Valideynlər yanımda
dağtək dayancım mənim,
Dostlar qalib gəlirsə
sevincim olar mənim,
Ürəyimə güc verən
Yurda inançim mənim,
Ömrüm bağındakı gül,
Dikandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Nənəm deyən sözünü,
eşitmişəm neçə var,
Daş çıxdı diyə yoldan
dayanmayacağam tekrar,
Çünki mən Cəlaləddin
yurdunda bitən nihal,
Ömrüm bağındakı gül,
Dikandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Çoxlu arzularım var
Ulduzlar kimi sonsuz,
Hətta kimin üçün o
arzu etmək imkansiz,
Axı arzusuz adam
bir bədən kimi cansız,
Arzular yaşattıram
İmkandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Ətirgülün görkünə
Aşıq olmayan varmı?
Gülü xəyal edənlər
Dikandan xəbərdarmı?
Məşəqqətsız arzuya
çatan adam da varmı?
Ömrüm bağındakı gül,
dikandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Mənəm bir ağac kimi
günəşə əl uzadan,
Bəzən külək əsəndə
yarpaqlarını tökən,
Payızda arman, baharda
arzulara sahıbam,
Dörd mövsüm sınavına
mən həmişə hazıram,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

**Uyğunlaşdıran və hazırlayan:**
**Rəhmət Babacan**

Türküstan.- 2022.- 24-30 may.- S.12.